**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№372/2** **29 dekabr 2024-cü il**

**Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 3.1-ci "Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartlar ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri" bəndinin icrası ilə əlaqədar 2024-cü il üzrə görülmüş işlər barədə hesabata dair**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin maliyyə nəzarəti, o cümlədən müstəqil audit sahəsində beynəlxalq standartların tətbiqi ilə bağlı tövsiyələrini rəhbər tutaraq, "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanunundan, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnamədən, Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) qarşısında üzvlük öhdəliklərindən və "Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf Konsepsiyası"ndan (2021-2030-cu illər) irəli gələn vəzifələrin icrasının təmin edilməsi məqsədilə Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 3.1-ci "Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartlar ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri" bəndinin icrası ilə əlaqədar 2024-cü il üzrə görülmüş işlər barədə hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 3.1-ci "Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartlar ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri" bəndinin icrası ilə əlaqədar 2024-cü il üzrə görülmüş işlər barədə hesabat nəzərə alınsın (əlavə olunur).
2. Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, beynəlxalq peşəkar təşkilatların Beynəlxalq Standartlara dair peşə yeniliklərinin öyrənilməsi, tətbiqi, təbliği və təşviqi ilə bağlı işlərin müntəzəm görülməsini təmin etsin.
3. Bu qərarın və hesabatın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**